

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 2 (23.164)

*4 yanvar 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 3-də Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışında iştirak edib.

Prezident İlham Əliyevə burada yaradılan şərait barədə məlumat verilib. Binanın tikintisinə ötən ilin mayında başlanılıb. Müasir səviyyədə və yüksək zövqlə inşa olunan ikimərtəbəli binanın həyətində avtomobillər üçün parkinq yeri yaradılıb, abadlıq və yaşıllıq işləri görülüb.

Dövlətimizin başçısı Əmlak Xidmətləri Məkanının rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyevə komitə tərəfindən elektronlaşdırılan xidmətlər barədə məlumat verilib. Komitə artıq 40 xidməti elektron qaydada vətəndaşlara birbaşa və e-Hökumət portalı vasitəsilə təqdim edir.

Dövlətimizin başçısına torpaqların idarə edilməsində istifadə olunan Peyk Müşahidə Sistemi layihəsinin iş prinsipi barədə məlumat verilib. Layihənin məqsədi torpaqlara dövlət nəzarətinin həyata keçirilməsində çevikliyin artırılması, qanunsuz tikililərin, torpağın münbit qatının korlanmasının qarşısının alınması, torpaq tədqiqatı, geobotaniki tədqiqat zamanı yeni texnologiyaların, süni intellektin imkanlarından istifadə edilməsidir.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin dekabr ayında bir sıra qərarlar qəbul etmişdir.

Nazirlər Kabinetinin 2018-ci il 11 dekabr tarixli qərarları ilə “Tikinti obyektinin istismarına icazənin vahid forması”nın təsdiq edilməsi haqqında” 2014-cü il 16 oktyabr tarixli 95 nömrəli, “Qapalı və sosialyönlü ictimai dövlət müəssisələri üçün dövlət büdcəsinin vəsaitləri hesabına alınan ərzaq məhsullarının qiyməti”nin təsdiq edilməsi haqqında” 2017-ci il 11 yanvar tarixli 2 nömrəli, “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə”nin və “Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2017-ci il 7 mart tarixli 13 nömrəli qərarlarında və “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nda dəyişikliklər edilmişdir.

Müvafiq qaydalarda edilmiş dəyişikliyə görə 2019-cu il yanvarın 1-dən etibarən avtobuslarla sərnişin daşımalarına “D” kateqoriyası və ya “D1” altkateqoriyası üzrə avtonəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 23-dən az və 65-dən çox olmayan və “B”, “C” kateqoriyalarına və ya “C1” altkateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi beş ildən az olmayan), “D1E” altkateqoriyası üzrə avtonəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 25-dən az və 65-dən çox olmayan və “D” kateqoriyasına və ya “D1” altkateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi iki ildən az olmayan), yaxud “DE” kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 26-dan az və 65-dən çox olmayan və “D” kateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi üç ildən az olmayan) sürücülər buraxılırlar.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2018-ci il 17 dekabr tarixli Qərarı ilə “Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları”nda, 2018-ci il 26 dekabr tarixli qərarları ilə “Elektron xidmət növlərinin Siyahısı”nda və “Naxçıvan Muxtar Respublikasında yaşayan Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi”nin təsdiq edilməsi haqqında” 2017-ci il 13 mart tarixli 16 nömrəli Qərarında və 2018-ci il 29 dekabr tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsi blankının ciddi hesabat sənədi kimi uçotu Qaydaları”nın və Naxçıvan Muxtar Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında” 2014-cü il 19 mart tarixli 33 nömrəli Qərarında dəyişikliklər edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar. nakhchivan.az*) tanış olmaq mümkündür.

## Uğurları ilə tarixləşən daha bir il



*XXI əsrin on səkkizinci ili yeni uğurlar ili kimi muxtar respublikanın tarixinə yazıldı. Tarix üçün çox da böyük müddət olmayan bir ilin də necə gəlib keçdiyinin fərqinə vara bilməsək də, diyarımızın salnaməsinə həkk olunan saysız-hesabsız genişmiqyaslı quruculuq ərmağanları, unuda bilməyəcəyimiz xoş xatirələr, əlamətdar hadisələr bizimlə qalır.*

2018-ci ilin ən mühüm hadisəsi ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya növbəti səfər etməsidir. Bu səfər Naxçıvanda bir çox sahələrdə müasir infrastrukturun yaradılması ilə əlamətdar olub. Səfər çərçivəsində dövlət başçısı Naxçıvan Müəllimlər İnstitutunun və Qaraxanbəyli kəndində 6 nömrəli tam orta məktəb binasının, hərbi xəstəxananın, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksinin, Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci mərhələsinin açılışlarında iştirak edib, Dövlət Sərhəd Xidmətinin sərhəd dəstəsində və Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Dövlət başçısı 2018-ci il mayın 16-da Ordubad Su Elektrik Stansiyasının tikintisi, muxtar respublika ərazisində meliorativ tədbirlərin görülməsi, Culfa-Ordubad magistral yolunun tikintisi və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 4 Sərəncam imzalayıb, ümumilikdə, bu işlərin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikasına 55 milyon manat vəsait ayrılıb.

Müasir tarixə yazılan mühüm hadisələrdən biri də Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmasıdır. Həmçinin 2018-ci ildə Naxçıvan şəhəri ölkəmizin Gənclər Paytaxtı seçilib. Sentyabrın 23-də isə muxtar respublika paytaxtında Avropa Günlərinin açılışı olub. Noyabrın 26-da Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumunun keçirilməsi də qədim diyarın tarixən formalaşmış mərkəz kimi əhəmiyyətini xeyli artırıb.

İlin ən yaddaqalan hadisələrindən biri kimi ölkəmizdə 11 aprel 2018-ci il tarixdə keçirilən növbəti prezident seçkilərində naxçıvanlıların böyük fəallığını xüsusi qeyd etmək lazımdır. Sevincimizə səbəb olan daha bir əlamətdar hadisə ordumuzun uğurlu Günnüt əməliyyatıdır. Bu əməliyyatdan sonra ordumuz 11 min hektar torpağa tam nəzarət edir.

Muxtar respublikada sosial-iqtisadi inkişafın təmin olunması bütün sahələrdə nailiyyətlərin qazanılmasına səbəb olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu Caspian European Clubun 2018-ci ildə ölkəmizin iqtisadi regionları üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ikinci dəfə ən yüksək bal toplayaraq lider olması bunu bir daha təsdiq edir.

Bu il 2018-ci ili məhz böyük uğurları, həyatımıza gətirdiyi yenilikləri ilə xatırlamağa tam haqqımız var. Çünki yola saldığımız il hər birimizin həyatına ayrı-ayrı izlər salıb. Əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilib. İqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılmasının müsbət nəticələri 2018-ci ildə bir qədər də artıb.

Qeyd etmək yerinə düşər ki, regionda sistemli və davamlı xarakter alan quruculuq tədbirləri muxtar respublikamızın sosial-iqtisadi inkişafının sürətləndirilməsində müstəsna əhəmiyyət kəsb edib. Bu da, son nəticədə, insanların rahat, firavan yaşamasına səbəb olub. Odur ki, bu işlərin bəhrələri yaşadıqca 2018-ci il də ömür kitablarımızda yaşayacaq, tariximizdə vərəqlənəcək, tariximizi yaşadacaq. Bizdən sonrakı nəsillər də tariximizin bu səhifəsini ən qiymətli salnamə kimi dəyərləndirəcəklər.

Bunun səbəbini geniş izah etməyə bir o qədər də ehtiyac yoxdur. Çünki 2018-ci ildə də xalqımızın minilliklər boyu yaratdığı dəyərləri yaşatmaq, gələcək nəsillərə olduğu kimi miras qoymaq üçün möhtəşəm tədbirlər həyata keçirildi. Belə tədbirlər diyarımızın tarixinə bir sıra yeniliklər yazdı. Bu yeniliklərə blokada şəraitində nail olmağı təsəvvür etmək belə inanılmazdır. Ancaq muxtar respublika sakinləri 2018-ci ildə də bir daha gördülər və yəqin etdilər ki, bu qədim diyarda insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı və diqqət günümüzün reallığına çevrilib. Qurub-yaratmaq istəyimizi gücləndirən başlıca amil də məhz bu reallığı yaşamağımızdır. Kimlərəsə bu, təəccüblü görünə bilər. Əsl həqiqətdə də belədir. Muxtar respublikaya ölkəmizin digər bölgələrindən, xarici ölkələrdən gələn qonaqlar qədim diyarın belə intibaha qovuşmasına inana bilmirlər. Bunun təməlində isə ulu keçmişə ehtiram, sabaha cavabdehlik hissləri, düzgün seçilib müəyyənləşdirilmiş yol dayanır.

Gülzarlıqlar, yaşıllıqlar, gözəlliklər diyarına çevrilən muxtar respublikada bərqərar olunmuş ictimai-siyasi sabitlik insanların həyata baxışlarını kökündən dəyişdirib. Naxçıvanlıların qədim diyarımızda həyata keçirilən proseslərdə fəallığını yurdumuzu daha gözəl, daha füsunkar, iqtisadiyyatını güclənən bir diyar kimi görmək istəyinin ifadəsi kimi qiymətləndirmək olar. Bu, doğma Vətənə, onun daha işıqlı sabahına bağlılığın, yurdsevərliyin ən gözəl təcəssümüdür. Bütün bunları düşünərkən yadıma ümummilli liderimizin sözləri düşür: ***“İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”.*** Bu gün ulu öndərin arzularının yerinə yetirildiyini bu qədim torpağın istənilən ünvanında görmək olar. Bu arzuların yerinə yetməsi isə inkişafın möcüzə təsiri bağışlayan ifadəsi, bu günün reallığıdır.

2019-cu ilin ilk günlərini yaşayırıq. Necə qarşıladıq növbəti ili? Dükan-bazarlarımızda bolluq, çöhrələrdə təbəssüm, qəlblərimizdə sevinc, diləklərimizdə yurdumuzda belə günlərin əbədi olması istəyi ilə. Bu əbədiliyə bütün varlığımızla inanırıq. Çünki min illərdir, hər açılan sabah həyatın davamı olub. Bu həyat, bu yaşam möhkəm özüllər üzərində qurulubsa, onun gələcəyi gözlənildiyindən də yaxşı olacaq. Bu mənada, 2018-ci ilin uğurları 2019-cu ilin daha yüksəliş ili olacağına möhkəm inam yaradıb. Hər şeydən əvvəl, ulu öndərin ideyalarının dönmədən həyata keçirildiyi qədim diyarımızda nail olduqlarımızın təməlində məhz bu amil dayanır: dahi şəxsiyyətin müəyyənləşdirdiyi siyasətə, xalqımızın böyük oğlunun bizə irs qoyduğu yola sədaqət və ehtiram. Qarşıladığımız ildə də ümummilli liderimiz Heydər Əliyevin ideyaları yolumuzu işıqlandıracaq. Bu yol əbədi yoldur.

✍ **Muxtar MƏMMƏDOV**

# Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələri genişlənir

## *Xarici tələbələr ali təhsil ocağına üstünlük verirlər*



Naxçıvan Dövlət Universitetinin ölkəmizdə və onun hüdudlarından kənarda nüfuzlu elm və təhsil ocağı kimi tanınması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Zəngin və şərəfli inkişaf yolu keçmiş ali təhsil ocağı görkəmli dövlət xadiminin ideyalarını yaşadan dövlətçilik universitetidir. Ulu öndər demişdir: ***"Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyanlardan biri və onun təşəbbüskarıyam... Böyük iftixar hissi keçirirəm ki, əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir... Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin zirvəsidir".***

Bu gün Naxçıvan Dövlət Universiteti yeni inkişaf mərhələsinə qədəm qoyub. Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri universiteti də əhatə etmiş, müasir tədris korpusları, kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Xəstəxana, Olimpiya-İdman mərkəzi, Baytarlıq Təbabəti Klinikası və Tələbə evi istifadəyə verilmiş, müasir "Universitet şəhərciyi" salınmışdır.

Naxçıvan Dövlət Universitetində informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq olunmuş, elektron idarəetmə və tədris sistemi istifadəyə verilmiş, kadr hazırlığına diqqət artırılmış, yeni fakültələr və ixtisaslar açılmışdır. 1967-ci ildə 3 ixtisas və 103 tələbə ilə fəaliyyətə başlayan universitetdə hazırda 12 fakültədə tədris aparılır, bakalavr səviyyəsində 60 ixtisas üzrə 5351 tələbə, magistratura səviyyəsində 81 ixtisas üzrə 326 magistrant, doktorantura səviyyəsi üzrə 150 doktorant təhsil alır. Universitetdə Dissertasiya Şurasının fəaliyyət göstərməsi muxtar respublikada ali təhsillə yanaşı, elmi potensialın da inkişafına əhəmiyyətli təsir göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvan Dövlət Universitetinin ötən 50 ildə qazandığı təcrübə, elmi potensial və yaradılan tədris imkanları bizim sərvətimizdir".***

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, bu gün Naxçıvan Dövlət Universiteti möhkəm milli əsaslara malik olan, dünya universitetlərinə inteqrasiya edən müasirtipli ali təhsil ocağıdır. Əgər 1996-cı ildə Naxçıvan Dövlət Universiteti ölkəmizin 37 universiteti arasında 36-cı yerdə idisə, hazırda yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə Azərbaycan ali təhsil müəssisələri arasında ilk sıradadır. 2015 və 2017-ci illərdə Naxçıvan Dövlət Universiteti ölkəmizin ali məktəblərinin reytinqində ilk yeri tutub. Asiya Universitetləri Cəmiyyətinin, Avropa Rektorlar Klubunun, Avrasiya Universitetlər Birliyinin (EURAS) üzvü olan, "Minilliyin universiteti" adını daşıyan bu ali təhsil ocağını Şərqdə və Qərbdə nəinki tanıyır, həm də dünya universitetləri ailəsinin layiqli üzvü kimi qəbul edirlər. Son illər beynəlxalq əlaqələrin genişləndirilməsi sahəsində görülmüş məqsədyönlü işlərin nəticəsidir ki, hazırda Naxçıvan Dövlət Universitetinin dünyanın 50-dən çox ölkəsinin 80-dən artıq ali təhsil ocağı ilə faydalı əməkdaşlıq münasibətləri mövcuddur. "Mövlana", "Tempus", "Erasmus+", "Erasmus Mundus", "Key Action" proqramlarının uğurlu icrası universitetin beynəlxalq arenada tanıdılması və təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu gün Naxçıvan Dövlət Universitetində beynəlxalq, o cümlədən elmi əməkdaşlığın inkişafı ilə yanaşı, tələbə mübadiləsinə də böyük əhəmiyyət verilir. Müasir təhsil infrastrukturunun, möhkəm maddi-texniki baza və güclü kadr potensialının yaradılması xarici tələbələrin diqqətinin bu ali təhsil ocağına yönəlməsində başlıca amildir. Təbii ki, bu işdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının, burada təhlükəsiz həyatın təmin olunmasının, multikulturalizm ənənələrinin layiqincə qorunub saxlanılmasının da mühüm rolu vardır. Bu gün Azərbaycanın ali təhsil müəssisələrində 6 min əcnəbi təhsil alır ki, onun da 500-ü Naxçıvan Dövlət Universitetinin tələbəsidir.

Naxçıvan Dövlət Universitetində Xarici tələbələrlə iş üzrə dekanlıq fəaliyyət göstərir. Dekanlıq universitetə təhsil almağa gələn xarici vətəndaşların hazırlıq kurslarını təşkil edir, ayrı-ayrı fakültələrdə bakalavr və magistr təhsili alan xarici tələbələrin qayğıları ilə maraqlanır. Xarici ölkələrdən gələn tələbələr hazırlıq kurslarında 8 ay təhsil aldıqdan sonra buraxılış imtahanı verirlər. Bu imtahandan keçənlər seçdikləri ixtisaslar üzrə birinci kurslara qəbul olunurlar. Magistratura təhsilini seçən əcnəbi vətəndaş isə Azərbaycan Respublikasının hər hansı ali təhsil müəssisəsinin bakalavr pilləsindən məzun olubsa, bu zaman o, hazırlıq kursu keçmədən magistraturaya qəbul edilir.

Bu gün Naxçıvan Dövlət Universitetində dünyanın 8 ölkəsindən – Türkiyə, İran, Nigeriya, Banqladeş, Cənubi Koreya, Qana, Nepal və İraqdan gələn tələbələr təhsil alır. Tələbələrin sayına görə Türkiyə Respublikası birinci sıradadır. Xarici tələbələr, əsasən, universitetin Tarix-filologiya, Fizika-riyaziyyat, Pedaqoji, Təbiətşünaslıq və kənd təsərrüfatı, Memarlıq və mühəndislik, Tibb, Beynəlxalq münasibətlər və xarici dillər, Sosial idarəetmə və hüquq, İqtisad və İncəsənət fakültələrində təhsil alırlar. Sevindirici haldır ki, son iki ildə universitetə təhsil almaq üçün müraciət edən əcnəbi tələbələrin sayında artım müşahidə olunmuşdur. Belə ki, bu il 252 əcnəbi tələbənin müxtəlif ixtisaslar üzrə hazırlıq kursuna qəbul olunması Naxçıvan Dövlət Universitetinin dünyada artan nüfuzunun, beynəlxalq arenada qəbul edilən ali təhsil müəssisəsi olmasının təqdirəlayiq ifadəsidir.

2018-ci ilin sentyabr ayından etibarən əcnəbi tələbələrin müvəqqəti yaşayış üçün qeydiyyatı artıq universitetin Xarici əlaqələr bölməsində aparılır. Əcnəbi tələbələr olduqları yer üzrə qeydiyyat və müvəqqəti yaşama icazələrinin verilməsi üçün Dövlət Miqrasiya Xidmətinə elektron qaydada müraciət etmək imkanına malikdirlər.

Naxçıvan Dövlət Universitetində xarici tələbələrin asudə vaxtlarının səmərəli təşkili də diqqətdə saxlanılır, bu məqsədlə müxtəlif intellektual oyunlar, müsabiqələr, idman yarışları, viktorinalar, Beynəlxalq Tələbə-Gənclər Həftəsi təşkil olunur. Vaxtaşırı keçirilən "Azərbaycanı tanı" intellektual oyununda, futbol, şahmat, stolüstü tennis, badminton və digər idman növləri üzrə yarışlarda əcnəbi tələbələr fəallıq göstərirlər. Beşminillik tarixə şahidlik edən, dünya sivilizasiyasının beşiyi olan Naxçıvanın tarixi və mədəni abidələrinə, muzeylərinə, turizm obyektlərinə turların təşkili də tələbələrin muxtar respublika ilə daha yaxından tanış olmasına imkan verir.

Naxçıvan Dövlət Universitetinin dünyaya inteqrasiyasında, xarici tələbələrin burada təhsil almaq imkanlarının daha da yaxşılaşmasında distant təhsilin tətbiqi mühüm əhəmiyyətə malikdir. Distant təhsil proqramının Azərbaycan ali məktəbləri arasında ilk dəfə bu universitetdə həyata keçirilməsi tədris prosesində müasir texnologiyaların imkanlarından geniş istifadənin nəticəsidir. Tələbələr istənilən ölkədən kompüter, mobil telefon və planşetlər vasitəsilə Naxçıvan Dövlət Universitetinin *ndu.edu.az* saytına müraciət etməklə Distant Təhsil Mərkəzinə qoşulmaq imkanına malikdirlər. Çoxfunksiyalı distant təhsil proqramında dərslər offlayn və onlayn rejimdə tədris olunur. Keçilən dərslərin yaxşı mənimsənilməsi üçün elektron kitabxana portalı fəaliyyət göstərir. İlkin mərhələdə 4 ixtisas – xarici dil müəllimliyi (ingilis, fransız, alman və rus dilləri) üzrə distant təhsil aparılır.



Universitetdə təhsil alan xarici tələbələr yaradılan şəraiti yüksək qiymətləndirirlər. Cihad Erdem Türkiyə vətəndaşıdır. Memarlıq ixtisasının III kursunda oxuyur. O, Naxçıvan Dövlət Universitetində təhsil almaqdan və muxtar respublikada olmaqdan məmnunluğunu bildirərək deyir: "Naxçıvanda təhsil almaq istəyi məndən əvvəl burada oxumuş dostlarımın tövsiyəsi əsasında yarandı. Muxtar respublikaya gələndən sonra onların Naxçıvanın inkişafı və təhsilin səviyyəsi barədə dediklərindən də artığının şahidi oldum. Bunlar məni çox sevindirdi. Sizin bir atalar sözünüzdə də deyildiyi kimi: "Min dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır". Dilimizin, kökümüzün, adət-ənənələrimizin, tariximizin bir olmağı imkan verir ki, bir-birimizi daha yaxşı başa düşək. Buraya daha yaxından bələd olduqca görürəm ki, Naxçıvan, həqiqətən də, ən qədim oğuz-türk yurdudur. Bu torpağın hər qarışında əcdadlarımızın yaratdığı böyük mədəniyyətin, qədim tarixin izləri vardır. Dərsdən sonra bizi vaxtaşırı muzeylərə aparırlar. Bax bu, mənim üçün ən böyük dərs və asudə vaxtımın səmərəli təşkili formasıdır".



Memarlıq ixtisası üzrə III kurs tələbəsi David Lekan Olaboye nigeriyalıdır. Uzaq Afrika ölkəsindən elm öyrənməyin yolunu tutub Naxçıvana gəlmiş bu gəncin də fikirləri maraqlıdır: "Naxçıvan Dövlət Universitetini məndən əvvəl burada oxuyan həmvətənlərimin sayəsində seçmişəm. Mən universitetin yataqxanasında qalıram və bu da mənim üçün hər cəhətdən rahat və sərfəlidir. Təhsilin səviyyəsi yüksəkdir. Tədrisdə ən müasir texnologiyalar tətbiq olunur. Naxçıvanda insanlar arasındakı mehribançılıq, qonaqpərvərlik məni buraya daha çox bağlayır. İdmana marağım var. Boksla məşğul oluram. Universitetin idman kompleksində məşq etməyim üçün geniş imkanlar vardır. Bir həqiqəti etiraf edim ki, universitetin idman kompleksində yaradılan şərait çox ölkənin böyük şəhərlərində belə, yoxdur. Heç bir vəsait ödəmədən mən burada məşq edirəm. Hətta keçirilən yarışlara qatılıb diplomlar da almışam".



Jurnalistika ixtisası üzrə II kurs tələbəsi Adebusalo Owoade də nigeriyalıdır. Onun da təəssüratları maraqlıdır: "Sevinirəm ki, Jurnalistika ixtisasına burada yiyələnirəm. Çünki universitetdə Media Mərkəzinin fəaliyyət göstərməsi təhsil və təcrübəni eyni vaxtda qazanmağa imkan verir. Verilişlərin hazırlanmasını və efirə verilmə prosesini maraqla izləyirəm. Gələcəkdə "Universitet" televiziyasında verilişlər də hazırlamağı nəzərdə tuturam. Naxçıvanda gənclərin, o cümlədən xarici tələbələrin təhsil alması ilə yanaşı, onların yaşaması və işləməsi üçün də hərtərəfli şərait yaradılmışdır. Mən də işlə təmin olunmuşam. Dərsdən sonra işləyirəm. Bu da imkan verir, həm öz maddi tələbatımı ödəyim, həm də ailəmə yük olmayım".



Həmsöhbət olduğumuz daha bir nigeriyalı tələbə isə Onanuga Olubayo Josephdir. O, Dünya iqtisadiyyatı ixtisasının IV kurs tələbəsidir.Tələbə yoldaşları deyir ki, Josephi axtaran kitabxanaya getsin. Söhbət zamanı Joseph də bu fikri təsdiq edir: "Naxçıvan çox qədim tarixə malik olan yurd yeridir. Möminə xatın türbəsini, Əlincə qalasını ziyarət etmişəm və məndə çox dərin təəssüratlar formalaşıb. Naxçıvanın təmiz, abad, səliqəli və təhlükəsiz yer olması mən daxil bütün xarici tələbələrin ürəyincədir. Tərəddüd etmədən günün istənilən saatında şəhərə çıxmaq imkanımız vardır. Universitetin kitabxanasından mütəmadi istifadə edirəm. Oxuduğum ixtisas üzrə kitabları burada tapıram. Xarici tələbə olduğum üçün mənimlə daha çox maraqlanırlar. Kitabxananın elektron oxu zalından da istifadə edirəm".



"Mən Naxçıvanda olmaqdan həzz alıram. Naxçıvan Dövlət Universiteti haqda internetdən məlumat toplamışdım, sosial şəbəkələr vasitəsilə burada təhsil alan xarici tələbələrə yazıb soruşmuşdum. Hamısı, "Gəl, peşman olmazsan", – demişdi. Gəlib universitetin maddi-texniki bazasını, kampusunu, müəllim heyətini, Naxçıvanın gözəlliklərini, insanların mehribanlığını görəndə öz-özümə "yaxşı ki burdayam", – dedim. Hazırlıq kursunda təhsil almağa başlasam da, artıq Naxçıvana, universitetə alışmışam. Elə bilirəm öz evimdəyəm". Bu fikirlər hazırlıq kursunun dinləyicisi olan banqladeşli MD Aktaruzzamana məxsusdur.



İranlı tələbə Pariya Mojtahedi Müalicə işi ixtisasının I kursunda oxuyur. Onun dedikləri: "Mən 10 il bundan əvvəl də Naxçıvanda olmuşdum. Təhsil almaq üçün buraya gələndə isə heyrət etdim. Şəhər başdan-başa dəyişib. Naxçıvan Şərq ənənələrinin və Qərb müasirliyinin vəhdət təşkil etdiyi şəhərdir. Yaşı qədim, özü müasir olan bu torpaqda sivilizasiyalar, mədəniyyətlər birləşir. Universitetin təhsil şəraiti isə çox gözəldir. Tələbə yoldaşlarımızla birgə Tibb fakültəsi üçün yeni binanın inşa olunmasını fərəhlə qarşılayırıq. Xəstəxanalarda təcrübə keçirik, burada da şərait bizi qane edir. Kiçikdən-böyüyə hamı istiqanlıdır. Tanımadığım ünvanı soruşanda məni aparıb düz oraya çatdırırlar. Tələbə yoldaşlarımla, dostlarımla bir ailəyik. Hətta ailələrimiz arasında da bağlar yaranıb".



Pariyanın tələbə yoldaşı türkiyəli Şəhriban Sarıhan söhbətə qoşulur: "Mənim xəyallarım arasında bir gün Azərbaycana gəlib yaşamaq olmuşdur. Bu gün mən qədim tarixi olan Naxçıvanda təhsil aldığım üçün çox şadam. Çünki özümü doğma vətənimdə hiss edirəm. Dilimiz, dinimiz, adətlərimiz və dəyərlərimiz birdir. Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Türk dünyasının böyük oğlu Heydər Əliyevin dediyi kimi: *"Bir millət, iki dövlətik"*. 2018-ci ildə Naxçıvanın Azərbaycan Gənclər paytaxtı, İslam Mədəniyyəti Paytaxtı olmasının qürurunu yaşadıq. Naxçıvanda təşkil edilən konsertlərdə, bilik yarışlarında, viktorinalarda, idman yarışlarında fəallıq göstərirəm. Mükafatlarım da var. Universitetin 50 illik yubileyi isə xoş xatirələrlə yaddaşıma yazılıb. Xoşbəxtəm ki, yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bir qrup xarici tələbə kimi, məni də mükafatlandırdı. Həmin tədbirdə Naxçıvan haqqında ən xoş sözlərimi, duyğularımı dilə gətirmək ömürboyu unutmayacağım xatirələrdir. 2019-cu ilin Türkiyə və Azərbaycan xalqına uğur gətirməsini diləyirəm. Qarabağ zəfərini birlikdə qeyd edək, inşallah..."

Naxçıvan Dövlət Universitetində xarici tələbələrin təhsili üçün hərtərəfli şərait yaradılıb. Tələbələrin bəziləri müharibənin, bəziləri isə ciddi sosial problemlərin içindən çıxıb gəlib. Burada təhsil almaq, sabitlik və inkişaf məkanı olan muxtar respublikada yaşamaq onların arzusu, düşünülmüş siyasi xəttin bəhrəsidir. Bütün bunlar bir daha təsdiq edir ki, Naxçıvan Dövlət Universiteti elmin, tədrisin və mədəniyyətin inteqrasiyasını özündə birləşdirən mötəbər ali məktəbdir. Naxçıvanın dünyaya açılan qapısıdır. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Naxçıvan Dövlət Universiteti böyük və şərəfli yol keçmişdir. Mən şadam ki, universitet çox sürətlə inkişaf edir, burada çox böyük işlər görülür. Universitet dünyanın aparıcı ali məktəbləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilibdir. Burada müxtəlif ölkələrdən tələbələr oxuyur. Bu da onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksək səviyyədədir".***

**Səadət ƏLİYEVA**
*Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri*



*Ölkəmizdə Azərbaycan Vətən müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir. Bu siyasətin əsası isə ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderimizin 1994-cü il avqust ayının 26-da imzaladığı “Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında” Fərmanı bunun ifadəsi olmaqla müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsinin gücləndirilməsinə stimul verib.*

# Onlar yeni ili yeni mənzillərində qarşıladılar

Ulu öndərin müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindən biri həmin kateqoriyadan olan insanlar üçün müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının tikilməsidir. Bunun ifadəsidir ki, ötən dövr ərzində yüzlərlə Azərbaycan Vətən müharibəsi, Çernobıl əlilləri və şəhid ailəsi mənzillə təmin edilib.

O da qeyd olunmalıdır ki, ölkəmizdə fiziki imkanları məhdud insanların müalicə və reabilitasiyasına diqqət göstərməklə yanaşı, onların minik avtomobilləri ilə təmin olunması yönündə də mühüm işlər görülür. Müharibə əlilləri və şəhid ailələrinin övladlarının təhsil haqları dövlət hesabına ödənilir.

Bu gün Naxçıvan Muxtar Respublikasında da məhdud fiziki imkanlı şəxslərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, sağlamlıqlarının qorunması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb. Müvafiq kateqoriyadan olan 460 sağlamlıq imkanları məhdud şəxs minik avtomobili, 173 ailə isə yaşayış evləri ilə təmin edilib. Sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsini gücləndirmək məqsədilə hər ay muxtar respublikada 5473 ailə sosial müavinət, 223 şəhid ailəsinə, 1673 müharibə əlilinə və birinci qrup ümumi səbəbdən əlillərə təqaüdlər ödənilir.

Bununla yanaşı, sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzində, Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud şəxslərə tibbi xidmət göstərilir, onlara sanatoriya və pansionatlara göndəriş verilir. Bu kateqoriyadan olan insanlar texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin edilir, belə şəxslərə protez-ortopedik xidmət göstərilir.

Görülən tədbirlərin davamı kimi ötən ilin sonlarında Şərur rayonunda sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən



1 nəfərə və 1 hərbi xidmət dövrü əlilinə mənzil təqdim olunub, 1 Çernobıl əlilinə isə “NAZ-Lifan 320” markalı minik avtomobili verilib. Bu da mənzil və avtomobillə təmin olunmuş həmin ailələr üçün 2018-ci ilin ən əlamətdar və yaddaqalan hadisəsi olub. 2 və 3 otaqlı tam təmirli mənzillər rayonun İbadulla, Yengicə, Dəmirçi kəndlərində və Şərur şəhərində yerləşir. 4 mənzilin hər birində lazımi kommunal-məişət şəraiti yaradılıb. Yeni mənzillə təmin olunanlara xalça hədiyyə edilib.

Bu bayram günlərində biz də yeni evlərində qonaq olub onlarla söhbətləşdik. İlk üz tutduğumuz evin sahibi Əziz İbrahimov və həyat yoldaşı Bahar xanımın sevincinin həddi-hüdudu yoxdur. 23 ildir ki, kirayədə yaşayan bu ailənin illərlə həsrətini çəkdiyi mənzil onlara hədiyyə olunub. 66 yaşlı Əziz dayı ailəsinə göstərilən bu qayğıya görə dövlətimizə öz minnətdarlığını bildirir və deyir:



– Şərur şəhərinin mərkəzində yerləşən rahat, hər cür şəraiti olan üçotaqlı bu gözəl mənzilin bizə hədiyyə edilməsi hədsiz sevincimizə səbəb olmaqla, sabaha inamımızı daha da artırıb. Bu mənzil bizim üçün əsl bayram hədiyyəsi oldu. Bir daha gördük ki, dövlətimizin sükanı etibarlı əllərdədir. Ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xətt uğurla davam etdirilir. Atılan hər bir addım, dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin ardıcıl olduğunu, müharibə iştirakçılarına, Çernobıl əlillərinə yüksək diqqət və qayğı göstərildiyini sübut edir. Görülən işlər həmin kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə, onların həyat şəraitinin əsaslı şəkildə yaxşılaşdırılmasına xidmət edir.

“Prezidentimiz öz fəaliyyəti ilə həmişə sübut edib ki, O, hər bir azərbaycanlının Prezidentidir. Dövlət başçımız bütün vətəndaşlara qayğı göstərir, onların problemlərinin həlli istiqamətində ardıcıl işlər görür. Yaxın günlərdə rayonumuzda veteranlar evinin inşa olunacağı xəbəri isə məni daha çox sevindirdi”, – deyən müsahibim onu da qeyd edir ki, bu gün muxtar respublikada cəmiyyətin hər bir üzvü qayğı ilə əhatə olunub. İstər yaşlı, istər gənc bu qayğıdan yetərincə bəhrələnir.

“Hər an cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrlərini yerinə yetirməyə, onun tapşırığı ilə Vətənimizin bütövlüyü və torpaqlarımızın azad olunması üçün sipər olmağa hazırıq”. Bu sözlər isə sağlamlığını Ağdam və Sədərək uğrunda gedən döyüşlərdə itirən birinci qrup əlil, İbadulla kəndinin 46 yaşlı sakini Sənan Rəhimova aiddir:

– İkinci Dünya və Azərbaycan Vətən müharibəsi əlilləri, hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması daim dövlətin diqqət mərkəzindədir. Çox sevindirici haldır ki, mütəmadi olaraq şəhid ailələri, müharibə əlil və veteranlarının, 20 Yanvar və Çernobıl əlillərinin müavinətləri artırılır, mənzil-məişət şəraitləri yaxşılaşdırılır, pulsuz müalicə və müayinələrin təşkili həyata keçirilir. Mən də bu qayğıdan bəhrələnirəm. İldə bir neçə dəfə pulsuz müayinədən keçirəm. Bizim üçün yaradılmış belə şəraitə görə dövlətimizə dərin minnətdarlığımızı bildiririk.

Yengicə kənd sakini Şahin Abdullayevin də mənzilinə baş çəkdik.

– Yeni ili yeni mənzildə qeyd etməyimiz ailəmizin hədsiz sevincinə səbəb oldu, – deyən ev sahibi verilən mənzil və həyətyanı sahə ilə bizi tanış etdi. Üç övlad atası olan Şahin onlara yaradılan şəraitdən ağızdolusu danışır və deyir ki, bütün bunlar mənim kimi Vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlərin böyük sevincinə səbəb olur.

Ev sahibəsi Lalə xanımın və övladlarının da sevinci sonsuz idi. O da, öz növbəsində, ailəsinə göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirdi.

*Ölkəmizdə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda həyata keçirilən sosial siyasət hər kəs tərəfindən insan amilinə yüksək qayğı kimi dəyərləndirilir. Bu isə gənc nəsli Vətənin müdafiəsində daim səfərbər olmağa ruhlandırır. Aparılan dövlət siyasəti, eyni zamanda hər bir vətəndaşa müharibə veteranlarına dərin ehtiram bəsləməyi, qayğı göstərməyi, onlardan vətənpərvərlik ruhunu əxz etməyi aşılayır.*

**Ramiyyə ƏKBƏROVA**

# Karate-do Federasiyasında yığıncaq keçirilmişdir



*Dünən Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasında 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında” keçirilən müşavirə ilə bağlı yığıncaq olmuşdur.*

Tədbiri giriş sözü ilə açan Karate-do Federasiyasının sədri Fazil Ələkbərov yığıncağın gündəliyində duran məsələlərlə bağlı məlumat vermişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyevin 2018-ci ildə görülən işlər və keçirilən yarışlar barədə hesabat çıxışı dinlənilmişdir.

Muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov bildirmişdir ki, muxtar respublikamızda idman və idmançılara dövlət qayğısı ən yüksək səviyyədədir. Naxçıvanın bütün rayon və şəhərlərini əhatə edən müasir idman infrastrukturu fonunda gənc və yeniyetmələrin idmanın müxtəlif növlərinə marağı günü-gündən artmaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən məlum müşavirədə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman federasiyalarına, o cümlədən Karate-do Federasiyasına bir sıra tapşırıqlar verilmişdir.

Azad Cabbarov vurğulamışdır ki, 2002-ci ildə yaradılan Karate-do Federasiyası idmanın bu sahəsi üzrə kütləviliyin təmin edilməsi istiqamətində işləri günün tələbləri səviyyəsində qurmamış, muxtar respublikada yaradılan şəraitdən və infrastrukturun imkanlarından düzgün istifadə etməyi bacarmamış, muxtar respublika səviyyəli yarışlarda keyfiyyət və təşkilatçılıq qənaətbəxş olmamışdır.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının strukturunun yenidən formalaşdırılması bu idman növünün muxtar respublika rəhbərinin daim diqqətində olduğunu göstərdi. Yeni yaradılan strukturun uğurlu fəaliyyəti nəticəsində federasiya öz işini daha da təkmilləşdirmiş və gələcək uğurlar üçün stimul yaratmışdır. Son iki ildə Naxçıvan karateçiləri respublika və beynəlxalq miqyaslı turnirlərdə ötən illərlə müqayisədə daha uğurlu nəticələr əldə etmiş, 2018-ci il ərzində ölkə və beynəlxalq səviyyəli yarışlarda 40 medal qazanmışlar. Muxtar respublikamızın rayon və şəhərlərində ötən il ərzində 21 qrupda 600-dən artıq idmançı 14 məşqçi-müəllim tərəfindən bu idman növünün sirlərini öyrənmişlər. Hesabat ilinin avqust ayında “Araz” İdman Klubunun rəhbəri Siyavuş Bayramov müəyyən müddətə muxtar respublikamıza dəvət olunmuş, federasiyanın yeniyetmə və gənc idmançılarına seminarlar keçmişdir.

Nazir çıxışının sonunda qeyd etmişdir ki, həyata keçirilmiş tədbirlər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının birgə və məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərov çıxışında vurğulamışdır ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş idman və gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Diyarımızda idmanın kütləviliyinə nail olunması, xüsusilə uşaq və gənclərin idmana cəlbi istiqamətində görülən ardıcıl tədbirlər nəticəsində müasir idman infrastrukturu yaradılması, maddi-texniki bazanın gücləndirilməsi və idmanın hərtərəfli inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirilmişdir.

Fazil Ələkbərov qeyd etmişdir ki, muxtar respublikada müxtəlif idman növləri üzrə fəaliyyət göstərən idman federasiyalarına hərtərəfli dövlət qayğısı göstərilərək, işlərini yüksək səviyyədə qurmaları üçün lazımi şərait yaradılmışdır. Karate-do Federasiyası bu qayğıdan bəhrələnərək 2018-ci ildə də işini günün tələbləri səviyyəsində qurmağa çalışmışdır. Federasiyanın tərkibində hazırda 14 məşqçinin rəhbərliyi altında 3 klub və 21 karate bölməsi fəaliyyət göstərir. Həmin klublardan 2016-cı ilin əvvəlində yaradılmış “Nəqşicahan” karate-do qızlar idman klubunun fəaliyyəti 2018-ci ildə daha da genişləndirilərək Naxçıvan şəhərində, Şərur və Ordubad rayonlarında əlavə qız bölmələri açılmışdır. 2018-ci ildə keçirilən beynəlxalq turnirlərdə qazanılan 2 qızıl, 1 gümüş və 3 bürünc medal qız idmançıların payına düşür. Bu gün muxtar respublikada karate idman növü ilə məşğul olan 600 nəfərdək uşaq, yeniyetmə və gənclərdən 100-ü qız idmançıdır.

Karate-do Federasiyası ötən il ərzində karate-do idman növünün inkişaf etdirilməsi və kütləviliyə nail olunması istiqamətində bir sıra işlər görmüşdür. Belə ki, 2018-ci ildə federasiya tərəfindən muxtar respublikada müxtəlif birinciliklər təşkil olunmuş və bu yarışlarda yaxşı nəticə göstərən istedadlı idmançılar seçilərək yığma komandanın tərkibinə daxil edilmişdir. Bununla yanaşı, idmançıların ölkə səviyyəli və beynəlxalq turnirlərdə iştirakı təmin edilmişdir.

Diqqətə çatdırılmışdır ki, ümumilikdə, ötən il karate-do idman növü üzrə idmançılar 13 beynəlxalq, 7 ölkə və 10 muxtar respublika birinciliyində güclərini sınamışlar. 2018-ci il ərzində federasiyanın idmançıları 87 medal qazanmışlar ki, onlardan 35-i beynəlxalq, 5-i ölkə daxili yarışlarda, 47-si isə muxtar respublikada keçirilən açıq çempionatda əldə olunmuşdur. Bundan əlavə, avqust ayında Azərbaycan Karate-do Federasiyasının tanınmış məşqçi və müəllimləri muxtar respublikaya dəvət olunaraq Naxçıvan Muxtar Respublikasının məşqçi-müəllim və idmançıları üçün seminar-treninqlər keçmişlər. Federasiyanın 1 idmançısı ölkə və beynəlxalq səviyyəli yarışlarda uğurlu nəticələr əldə etdiyinə görə Ali Məclisin Sədri tərəfindən qiymətli mükafatla təltif edilmişdir.

Federasiya sədri yaradılan şəraitə görə federasiyanın məşqçi və idmançıları adından muxtar respublika rəhbərinə minnətdarlığını bildirmişdir.

Vurğulanmışdır ki, Karate-do Federasiyası idmanın inkişafının sağlam gəncliyin formalaşmasında vacib rolunu əsas tutaraq, bundan sonra da qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində əzmlə çalışacaq, istedadlı idmançıların yetişdirilməsində səy və bacarığını əsirgəməyəcəkdir.

Fazil Ələkbərov rayonlarda federasiyanın bölmələrində görülən işlər barədə məşqçi-müəllimlərin fikirlərini dinləmiş, onların fəaliyyətlərinin genişləndirilməsi üçün müvafiq tapşırıqlar vermişdir.

Yığıncaqda federasiyanın 2019-cu il üçün hazırlanan qərar layihəsi oxunmuş və təsdiq olunmuşdur.

Sonra Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının il ərzində fərqlənən idmançıları mükafatlandırılmışdır.

**Ceyhun MƏMMƏDOV**

*Naxçıvan mətbəxi*

# Qədimdən günümüzə gəlib çatan yemək növü – qurud

***Bu yaxınlarda ziyalı, həm də dünyagörüşlü bir şəxslə söhbət zamanı onun, "Qurud haqqında nə bilirsən?" sualına cavabım belə oldu: – Qurud haqqında çox eşitmişəm, ancaq nə görmüşəm, nə də yemişəm. Etiraf edim ki, milli mətbəximizin nəfis təamı haqqında yetərincə məlumatlı olmadığım üçün çox utandım. Lakin bir an onu da düşündüm ki, bilməmək eyib deyil, bilmədiyini öyrənməmək eyibdir. Bu qənaətlə də qurud haqqında soraqlaşmağa başladım. Soraqlaşmaq deyəndə ki, qurud bu gün də kəndlərimizin əksər evlərində yaydan qışa tədarük edilən nemətlərin ən vaciblərindən hesab olunur. Lakin soraqlaşmaqda məqsədim elə bir müsahib tapmaq idi ki, qurud haqqında ondan müfəssəl məlumat ala bilim.***



Beləliklə, soraqladığım adamı tapdım, üz tutdum Şahbuz rayonunun Kükü kəndinə. Burada Səfərovlar ailəsinin birgünlük qonağı oldum. Ailənin ağbirçəyi 89 yaşlı Anaxanım nənənin qurudla bağlı söylədiklərini dinlədim, gəlini Asya xanımla birlikdə mətbəxdə qurud kələcəsi bişirib süfrəyə gətirdik.

Anaxanım nənə deyir: – Qurud qışa hazırlanan nemətlərin içərisində ən dadlısı, faydalısı olduğu kimi, həm də ən çətinidir. Çətindir, nəyə görə? Çünki onun hazırlanmasında səliqə, təmizkarlıq o qədər vacibdir ki... Elə buna görə el arasında deyirlər də, hər qadının hazırladığı qurud yeyilməz. Gərək qab-qacağın, əllərin, qurudu sərdiyin, qurutduğun yer gül kimi ola. Qurud yeganə yemək növüdür ki, onu yayda hazırlayanda da, qışda bişirəndə də əllər onunla dəqiqələrlə təmasda olur. Mən həmişə qıza-gəlinə tövsiyə edib deyərəm:

*Əzizim qurud aşı,*
*Dur bişir qurud aşı.*
*Bilirsənsə, yaxın gəl,*
*Bu iş sevməz heç naşı.*

Sonra Anaxanım nənə qurudun, həm də əsl qurudun necə hazırlanmasından danışmağa başlayır. O deyir ki, əvvəllər indi işlətdiyimiz süd maşınları yox idi. Süddən qatıq çalıb tökərdik nehrəyə, çalxayardıq. Xama bir yana ayrılardı, ayran da bir yana. Yayda hava isti olanda, xama ayrılmaq bilməyəndə gedib Dərəboğazından qar gətirər, bir qoşa ovuc nehrəyə atardıq, bir-iki dəfə çalxayandan sonra xama ayrılardı. Xama eyməyə yığılardı.

*Qısa bir haşiyə.* "Eymə nədir?" sualıma Anaxanım nənə belə cavab verir: – Eymə keçi dərisindən hazırlanardı. Keçinin dərisi bütöv soyular, təmizlənər, bir neçə saat həmərsin budaqları qaynadılmış suda saxlanardı. Bundan sonra eymə nə xamanın rəngini dəyişərdi, nə də ondan qoxu gələrdi. Eymədə xama tam suyunu süzərdi, təmiz yağ qalardı. Həmin yağı əridib, küplərə yığıb, ağzını bağlayıb qışın ayazlı-soyuqlu günlərinə saxlayardıq. Ayran isə qatıqla qarışdırılar, ocağa qoyular, azca çürüdülər, ondan qurud hazırlanardı.

Asya xanım isə deyir ki, mənim nənəm südü bişirib tökürdü iri teştlərə, üzü qalın qaymaq bağlayırdı. Həmin qaymağı yığıb əldə çəhləməklə yağ düzəldirdi. Bunun ayranı isə yağı tam yığılmadığı üçün istifadəsiz olurdu.

Anaxanım nənə: – O vaxtlar bu işləri görmək çox çətin idi, amma indi süd maşınları var, – deyir. Maşın süddən xamanı bir yana ayırır, yağsız südü bir yana. Bu yağsız süd bişirilir, ondan qatıq çalınır. Xamanı da ki əlində azca cəhləməklə yağı, ayranı ayrılır. Qurud hazırlamaq üçün ayranla həmin yağsız süddə çaldığımız qatıq qarışdırılıb ocağa qoyular, elə ki istinin təsirindən bu qarışıq bir azca yuxarı qalxdı, götürməlisən, qaynatmaq olmaz, keyfiyyəti itər. Bu qarışığı tökürsən torbaya, ta tərpətmirsən, gözləyirsən suyunu tamam süzür. Sonra onu yumurtadan bir qədər böyük ölçüdə yumrulayıb təmiz bir yerdə, günün qabağına düzür, üzünə də tənzif çəkirsən ki, üstünə heç nə düşməsin. Bir gün burada qalandan sonra götürüb kölgəyə qoyursan, tam quruyur. Qurumuş qurudları parçadan tikilmiş torbaya yığıb, ağzını bağlayırsan. Bununla da qışa ən gözəl bir ruzi hazırlamış olursan. Axı qışda mal-heyvan sağılmır. Süd-qatıq çox az olur. Necə ki əti qovurub qovurma hazırlayırıq, buğdadan yarma çəkirik, xəmir yoğurub əriştə kəsirik, dadlı-tamlı nemətlərimizdən qış üçün qurudub saxlayırıq, bax qurud da bu lazımlı qış azuqələrindən biridir. Çünki onun tərkibində vitaminlər olduqca çoxdur. O vaxtlar kəndimizdə bir həkim vardı, cavan oğlandı. Deyərdi ki, qışda günəş az olur. Gərək elə qidalanasan ki, bədənində vitaminlər azalmasın. Anaxanım nənə gəlininə tərəf çevrilib, ay gəlin, o həkim deyirdi günəşdən nə alırıq? D vitamini, ay ana, – deyə gəlin cavab verir. Hə, qızım, bax o həkimin dediyi quruddan hazırlanan yeməklərin tərkibində çoxdur.

Söhbətin bu yerində nənə gəlininə dedi ki, dur bir qurud kələcəsi bişir, qonağımız da görsün, dadına baxsın. Asya xanımla mətbəxə keçdik. Qayınanasının sözləri qulağında sırğa olan Asya xanım əvvəlcə əllərini tər-təmiz yudu. Sonra bir kiloqramadək qurud gətirib çox da böyük olmayan ləyənə yığdı. Dedi ki, əvvəllər qayınanamın saxsı qabı vardı, qurudu onda açardıq. O qab qırılandan bu ləyəndə açırıq. Ləyənə bir az ılıq su əlavə etdi, başladı qurudları suda açmağa. İslanmış qurud suda açıldıqca Asya xanım yenidən su əlavə edirdi. Beləliklə, 2-2,5 litr su istifadə olundu. Sonra qovurma ilə soğandağı elədi, qurudlu həlimi onun üzərinə əlavə etdi. Bunu çox qaynatmaq olmaz, tərkibindəki vitaminlər ölər, bir-iki burum bəsdir, – dedi. Sonra tavaya yağ qoydu, dağ olanda üzərinə əvvəlcədən doğranmış bir-iki ovuc cəviz əlavə etdi, bir qədər tovladı, götürdü. O, bu işləri görənədək mən boşqablara quru lavaş doğradım. Asya xanım "qurud kələcəsi" adlanan yeməkdən çömçə ilə boşqablara payladı, üzərinə də qızardılmış cəviz səpdi. Boşqabları süfrəyə düzəndə Anaxanım nənə dedi ki, qızım, bu yemək lavaşla, həm də əllə yeyiləndə daha dadlı olur. Bir də ki, qurudlu yeməkləri turşu ilə yox, ancaq soğanla yeyərlər. Asya xanım isə daha maraqlı bir məsələyə toxunaraq bildirdi ki, baxmayaraq ki, qurud yeməkləri qovurma ilə hazırlanır, qovurma isə çox kalorilidir, qurud aşı da, kələcəsi də qan təzyiqinin dərmanıdır.

Həqiqətən də, yemək çox ləzzətli, həm də fərqli dada malik idi. Elə süfrə arxasındaca Asya xanımdan qurud aşının hazırlanması barədə də soruşdum. Dedi ki, eynilə kələcə kimi hazırlanır, lakin ona yarma, düyü, bir də ki, ərik qurusu əlavə olunur, cəviz vurulmur. Yeyilməsi də eynidir – quru lavaş doğranmış yemək sulanmış çörəklə yeyilir.

Asya xanım deyir ki, qışı qurudsuz təsəvvür etmək olmaz. Kənddə əksər evlərdə bu faydalı nemət qışa tədarük edilir. O, ildə 10-15 kiloqram qurud hazırlayır. 5-6 kiloqramını özlərinə saxlayır, qalanını Bakı, Sumqayıt, Naxçıvan şəhərlərindəki qohumlarına pay verir. Daha doğrusu, qohumların xahişi ilə onlara da qurud hazırlayır.

Milli mətbəximizin min adda, min bir dadda nemətlərindən olan qurudla bağlı son qənaətim isə belə oldu. Asya xanım boşqablardakı quru lavaşın üzərinə yeməyin suyunu gəzdirərkən qurud kələcəsi eynilə xəngəl görüntüsü aldı. Bu an ticarət mərkəzlərində, marketlərdə satılan və istədiyimiz vaxt alıb bişirə biləcəyimiz xəngəl, düşbərə və əriştəni xatırladım. Onların sırasında qurudu da təsəvvür etdim. Düşünürəm ki, çeşid-çeşid Naxçıvan məhsulları, xüsusilə də burada istehsal olunan yüksəkkeyfiyyətli süd və süd məhsulları – yağ, xama, qaymaq, qatıq, ayran arasında qurud niyə də ki olmasın?

**Mətanət MƏMMƏDOVA**

## Azərbaycanlı alimlər "Manas"ın mirasçıları: Türk dünyası mədəniyyətinə xidmət" mükafatına layiq görülüblər



AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev Türkiyə Elmlər Akademiyası və Qırğızıstan İssık-Kul Dövlət Universiteti tərəfindən "Manas"ın mirasçıları: Türk dünyası mədəniyyətinə xidmət" mükafatına layiq görülüblər.

Alimlər bu mükafatla uzun illər ərzində apardıqları elmi araşdırmaları ilə Türk dünyasına, mədəniyyətinə və dilinə verdikləri töhfəyə görə təltif olunublar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Bayram günləri uşaqların yaddaşına xoş anlarla həkk olundu

*Yurdumuza sevinc, ruzi-bərəkət, xoşbəxtlik gətirən daha bir ilimiz də beləcə gözəl notlarla sona yetdi, nurlu sabahlara aparan yeni ilə qədəm qoyduq. Bayram günləri muxtar respublikanın bütün sakinləri xoş, mənalı istirahət etmək imkanı qazandılar. Ayrı-ayrı müəssisələr tərəfindən keçirilən bayram tədbirləri, xüsusilə balacaların yaddaşına maraqlı anlarla yazıldı.*



Yanvarın 2-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin qarşısında keçirilən Yeni il bayramına həsr edilən konsert proqramı uşaqlar üçün xüsusilə yaddaqalan oldu. Əvvəlcə tədbirin aparıcısı bildirib ki, 2018 naxçıvanlıların yaddaşına unudulmaz, xoş duyğularla dolu il kimi həkk edilib. Yola salınan il bir daha göstərib ki, on illər ərzində bu qədim türk yurdu böyük tərəqqi yolu keçib, dünyanı heyran edən diyara çevrilib. Bu gün muxtar respublika nail olduğu intibah mərhələsinin zirvəsindədir. Ötən il əldə olunan nailiyyətlər 2019-cu ilin daha da uğurlu olacağını deməyə əsas verir.

Daha sonra bayram konsertinə uşaqların sevimlisi olan Şaxta baba və Qar qız gəlib, onlar məktəbliləri təbrik edib, balacalar Vətənə, xalqa həsr edilən şeirlər söyləyiblər. Ən yaxşı şeir deyənlərə hədiyyələr verilib. Mərkəzin "Əlvan çiçəklər" vokal və rəqs qruplarının, "Nağara" və "Qarmon" ansambllarının, eləcə də istedadlı dərnək üzvlərinin ifasında nümayiş olunan biri-birindən maraqlı rəqs və musiqi nömrələri uşaqlarda yüksək əhval-ruhiyyə yaradıb.

Bayram günlərində mədəniyyət müəssisələrində də müxtəlif tədbirlər keçirilib. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı 2018-ci il dekabrın 30-dan 2019-cu il yanvarın 3-dək əyləncəli tamaşa ilə balacaların görüşünə gəlib. Bəhs edilən günlərdə müəllifi Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbov olan "Cırtdanın yeni il qonaqları" tamaşası göstərilib. Teatrsevərlər tamaşada Cırtdanın digər nağıl qəhrəmanları ilə dostluğunun şahidi olublar. Yeni tamaşa Azərbaycan folklorunun əsasında hazırlanıb, göstərilən şən və maraqlı səhnələr uşaqlara böyük sevinc bəxş edib.

Naxçıvan Dövlət Uşaq Teatrı da bayram günlərində balacalara maraqlı tamaşa təqdim edib. Teatrsevərlər Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun müəllifi olduğu "Qar qızı axtarırıq" tamaşasına baxıblar. Tamaşada uşaqlar yeni il şənliyinə tələsən Qar qızın başına gələn qəribə sərgüzəştlərlə tanış olublar. Nikbin sonluqla başa çatan tamaşa şən mahnıları ilə uşaqlara xoş ovqat bəxş edib.

Yeni il bayramı ilə əlaqədar Naxçıvan Dövlət Film Fondunda da uşaqlar üçün maraqlı cizgi filmləri nümayiş olunub, balacalar doyunca əylənmə imkanı əldə ediblər.

Naxçıvan şəhərinin Heydər Əliyev prospektində təşkil olunan bayram şənliyində Naxçıvan Dövlət Kukla Teatrı aktyorlarının təqdim etdiyi səhnəciklər, şən mahnılar valideynləri ilə birgə şəhər gəzintisinə çıxan uşaqlarda xoş ovqat, əsl bayram əhval-ruhiyyəsi yaradıb.

**Nail ƏSGƏROV**
**Əli RZAYEV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Torpaq üzərində mülkiyyət, istifadə və icarə hüququnu pozma hansı hallarda məsuliyyətə səbəb olur?*

**Cavab:** Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə əsasən qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutma səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Həmçinin qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma bir ildən üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Yuxarıda qeyd olunan əməllər kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədildikdə isə üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu əməllər təkrar və ya şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə isə beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

### İtmişdir

Babək rayonunun Qahab kənd sakini Seyidov Mireyvaz Əhməd oğlunun adına olan 18 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1480. Sifariş № 12